***Sərxan XAVƏRİ***
***Filologiya üzrə fəlsəfə doktoru, dosent***
***AMEA Rəyasət Heyətinin elmi katibi***
***e-mail: sarxan.xaveri@mail.ru***

# AZƏRBAYCAN NAĞILLARINDA OBRAZLARIN FUNKSİONAL SEMANTİKASI

Müxtəlif ölkələrin folklorşünaslıq elmi düşüncəsində fərqli folklor janrlarına elmi marağın nisbəti arasındakı fərq ona şahidlik edir ki, nağılşünaslıq folklorşünaslıqda diferensasiya potensialı ilə daha çox "boy verən" tədqiqat istiqamətlərindən biridir. Bunun səbəbi ilə bağlı kifayət qədər geniş yayılmış elmi arqument ondan ibarətdir ki, bu, nağılların şifahi xalq ədəbiyyatının daha populyar janrı olmasından irəli gəlir. Əslində isə nağılların populyarlıq miqyasını da, ona elmi marağın miqyasını da şərtləndirən eyni bir səbəbdir. Belə ki, funksional ola-raq nağıllar müxtəlif sosial situasiya və şərtlərin təsiri altında çevik olaraq dəyişməyə, müxtəlif sosial və psixoloji funksiyaların ifadəsinə çevrilməyə daha çox meyllidir, nəinki başqa janrlar. Vladimir Proppun qeyd etdiyi kimi, nağıllarda "kim edir?", "necə edir?" suallarından daha çox, "nə edir?" sualı aktualdır. Burada şərtləndirici amil statusunda funksiyalar çıxış edir. Nağılların populyarlığının və universallığının əsasında universal-antropoloji, daha dəqiq ifadə etsək, universal-psixoloji amil dayanır. Xüsusən, nağılın əsas qəhrəmanı timsalında uşaqlıq arzularından doğan psixoloji komfort təmin edildiyindən nağıllar daha çox populyarlaşa bilir.

Məhz bunun nəticəsidir ki, nağıl etnik, dini, linqivistik, mifik, əxlaqi təsisatlara, qəliblərə qarşı müqavimət baxımından daha "suveren" janr kimi qiymətləndirilə bilər. Bu, heç də qeyd olunan təsisatlardan heç birinin nağıllarda iştirak etməməsi anlamına gəlmir. Məsələ ondadır ki, istər nağılın poetik funksionallığı kontekstində, istərsə də sosial funksionallıq kontekstində bu təsisatlar nağıllarda öz müəyyənlik keyfiyyətini qoruyaraq iştirak edə bilmir. Nağıl yuxarıda qeyd etdiyimiz təsisatlara tabe olmaqdan daha çox, onları özünün funksional məntiqinə tabe etdirməyi sevir. Bu mənada nağıla daxil olan hər şey onun məntiqi ilə "nağıllaşır". Nağılın yuxarıda qeyd edilən təsisisatları nağıllaşdırma potensialı, məsələn, eposun eposlaşdırma potensialından daha güclüdür. Buna görədir ki, tarixi eposdan rekonstruksiya etmək təcrübəsi geniş yayıldığı halda, nağıllarda tarix axtarmaq cəhdinə daha az təsadüf olunur.

Onu da qeyd etmək istərdik ki, nağılşünaslığın elmi diferensasiyası aparılan tədqiqatların kəmiyyət göstəriciləri ilə deyil, məhz keyfiyyət göstəriciləri ilə mü-

əyyənləşir. Yəni, nağılşünaslıq onun barəsində daha çox yazanda yox, ona hətta bircə dəfə olsa belə, konseptual yanaşma olanda diferensasiya oluna bilir. Hətta ayrılıqda götürülən bir monoqrafik tədqiqat nağılşünaslığı ümumi folklorşünaslıq kontekstində diferensasiya etmək potensialındadır. Bunun ən bariz nümunəsinə rus folklorşünaslığında Vladimir Proppun araşdırmalarıdır.

Azərbaycanda nağılların tədqiqi tarixi folklorşünaslığın tarixi qədərdir. Hesab edirik ki, bu araşdırmaların Azərbaycan nağılşünaslığının inkişafında kifayət qədər mühüm rolu olmuşdur. Yaxın günlərdə filologiya üzrə fəlsəfə doktorları Səfa Qarayev və Hikmət Quliyevin bu zəngin ənənələrə əsaslanan, həmçinin yeni nəzəri-metodoloji baxışları özündə əks etdirən "Azərbaycan nağılları obrazlar və funksiyalar" kitabı nağılşünaslığın diferensiyasiyasına növbəti əhəmiyyətli bir töhfədir.

Kitab əksər dünya xalqlarının folklorunda olduğu kimi, Azərbaycan şifahi xalq ədəbiyyatı nümunələri içərisində də ən populyar janr olan nağılların müasir folklorşünaslıq və hətta humanitar elmi düşüncəmiz üçün yeni hesab oluna bilən nəzəri-metodoloji yanaşmalar əsasında araşdırılmasına, obrazlı ifadə etsək, "elmi oxusuna" həsr olunmuşdur. Hesab edirik ki, "yeni nəzəri-metodoloji yanaşma" dediyimiz elmi baxış, xüsusən tədqiqatın əsas məziyyəti kimi özünü göstərən nəzəri konsepsiyanın bir elmi paradiqmadan digər elmi paradiqmaya doğru inkişaf dinamikası kitabın adındakı anlayışlarda və bu anlayışların qarşılıqlı münasibətində dəqiq ifadə olunmuşdur: "Azərbaycan nağılları: obrazlar və funksiyalar". Məlum, "Azərbaycan nağılları" tədqiqatın obyektini ifadə edir. "Obrazlar və funksiyalar" isə elmi predmeti nişan verir. "Obraz" və "funksiya"nın bu araşdırmada vahid semantik kontekstdə birləşib tədqiqatın elmi predmetini təşkil etməsinə baxmayaraq, onlar kateqorial semantik tutumu baxımından bir-birindən xeyli dərəcədə fərqlənən anlayışlardır. Hesab edirik ki, burada "obraz" anlayışına ən ümumi mənada tədqiqatın çıxış nöqtəsi və start məqamı statusunda olan filoloji folklorşünaslığın və onun əsas "aləti" olan tarixi-müqayisəli metodun elmi işarəsi kimi baxmaq mümkündür. "Funksiya" anlayışı isə daha çox tədqiqatın strateji hədəfi statusunda olan sosial-antropoloji folklorşünaslığın kateqorial faktı kimi özünü göstərir. Biz bütün tədqiqat boyu dəyişməz, sabit nəzəri-metodoloji yanaşmadan daha çox, filoloji yanaşmadan sosial-antropoloji yanaşmaya doğru dəyişmədə olan dinamika müşahidə edirik. Bu mənada kitab folklorun bir janrını – nağılların tədqiqi timsalında, bütövlükdə müasir Azərbaycan folklorşünaslığının filolojidən sosial-antropolojiyə keçidini özündə ifadə edir. Bu dinamikanı izləməklə müasir mərhələdə Azərbaycan folklorşünaslığının iki elmi paradiqma arasında inkişafını modelləşdirmək və ssenariləşdirmək də mümkündür.

Fikrimizin daha predmetli anlaşılması üçün kiçik bir haşiyəyə çıxmaq istərdik.

***Haşiyə.*** Rus folklorşünası Vladimir Proppun 1928-ci ildə nəşr olunmuş "Nağılların morfologiyası" əsəri düz otuz ildən sonra, 1958-ci ildə ingilis dilinə tərcümə olunur. Cəmi iki ildən sonra 1960-cı ildə fransız antropoloqu Levi-Stross həmin əsəri tənqid edən, tənqidi pafosunun kəskinliyinə görə elmi ədəbiyyatlarda "duelə çağırış" kimi qiymətləndirilən "Struktur və forma" məqaləsini yazır. Bununla da, iyirminci əsr ictimai-humanitar elmi fikrinin iki dahi siması arasında elmi baxımdan olduqca maraqlı, həqiqətən də, daha çox "duel pafosu" ilə müşayiət olunan elmi polemika başlayır.

Olduqca maraqlıdır ki, bu iki dahi arasındakı polemikaya dünyanın bir sıra məşhur elmi-humanitar avtoritetləri ayrıca məqalələr həsr etmişlər. Bu alimlər içərisində S. Şişkov, A.Liberman, E.Uorner, E. Meletinski, A.Dundes və neçə-neçə başqaları vardır. Həm Vladimir Propp və Levis-Stross arasında olan mübahisələr, həm də bu məşhur mübahisəyə həsr edilmiş çoxsaylı digər elmi məqalələr yalnız folklorşünaslığı deyil, bütövlükdə iyirminci əsr humanitar-elmi təfəkkürünü olduqca orijinal və maraqlı elmi mülahizələrlə, xüsusən də mədəniyyətin öyrənilməsində metodoloji yanaşmalara dair nəzəri postulatlarla xeyli zənginləşdirmiş oldu.

Bu çoxsaylı məqalələr içərisində iyirminci əsrin humanitar elmi düşüncəsinə paradiqmatik səviyyədə təsir etmiş üçüncü bir alimin, Alan Dundesin "Mifdə binar oppozisiya: retrospektivə baxışda Propp və Levis-Stross debatı" məqaləsini xüsusilə qeyd etmək istərdik. Alan Dundes bu məqalədə Vladimir Proppu müdafiə mövqeyindən belə bir fikir ifadə edir ki, "mənə görə, Levi-Stross mifin strukturunu müəyyənləşdirmək əvəzinə miflərdə təsvir olunan dünyanın strukturunu təsvir etmişdir". Alim daha sonra "sakitcə" qeyd edir ki, "bu, olduqca vacib bir fərqdir". ***Haşiyənin sonu.***

Maraqlıdır, Alan Dundes mifin strukturu ilə miflərdə əks olunan dünyanın strukturu arasında nəyə görə Çin səddi çəkir? Əgər strukturalizmə görə, mədəniyyətin mahiyyəti məhz onun strukturu ilə müəyyənləşirsə, bu strukturun özü onda əks olunan dünyanın strukturu deyil də, bəs nədir? Hesab edirik ki, Alan Dundesin "sakitcə" "ciddi fərq" dediyi bu məqam mədəniyyətin öyrənilməsində sosial-antropoloji yanaşma ilə tarixi-müqayisəli yanaşma arasındakı nəzəri-metodoloji fərqi dəqiq ifadə edir.

Məsələ bundadır ki, Alan Dundesə görə, əgər folklorla bağlı tədqiqatın nəzəri platformasına tarixi-müqayisəli metod əsasında tarixi kontekst, onun tarixəqədərki mərhələsi hesab edilən, elə, əslində kateqorial olaraq ibtidai tarix kimi dərk olunan mifik çağ, onun da əsas davranış modeli kimi ritual "yatırılırsa", onda bu tipli araşdırmada folklorun strukturu yox, onda əks olunan "dünyanın strukturu"

öyrənilmiş olur. Əksinə, tədqiqatın nəzəri-metodoloji platformasına sosial-antropoloji yanaşma əsasında strukturu şərtləndirən amil statusunda psixogenetik kontekst, yaxud sosial kontekst "yatırılırsa", onda bu araşdırmalarda folklorun strukturu müəyyənləşmiş olur. Bu yanaşmada "kontekstual şərtlənmə" (ətraflı məlumat üçün bax: folklorşünaslıqda kontekstualizm nəzəriyyəsi) tədqiqatın açar anlayışı statusundadır.

Təqdim olunan kitabın "Azərbaycan nağıllarında yardımçı obrazlar" adlı birinci fəslinin nəzəri platformasını, əsasən, sosial-tarixi kontekst təşkil edir və bu kontekstdə görünən gerçəklik də, hesab edirik ki, mədəniyyətin (burada nağılların) öz strukturundan daha çox, "dünyanın strukturu"dur. Kitabın "Azərbaycan nağıllarında yeraltı dünya" adlanan və kosmos-xaos qarşıdurması əsasında yazılan ikinci fəsli isə daha çox dünyanın strukturundan mədəniyyətin strukturuna nəzəri-metodoloji keçidi xarakterizə edir. Bu fəsildə nağılların poetik strukturunda xüsusi semantikaya malik "yeraltı dünya"ya, mətnin kosmosundan xaosuna enişlə, san-ki müəlliflər metodoloji baxımdan növbəti mərhələdə nəzəri rekonstruksiya üçün dekonstruksiya (ətraflı məlumat üçün bax: Jak Derridanın dekonstruksiya konsepsiyası) mərhələsinə də daxil olurlar. "Məlikməmməd" nağılının psixosemantik təhlilinə həsr olunmuş üçüncü fəsildə psixoanaliz timsalında sosial-antropoloji hədəfə nail olunur. Burada tədqiqatın nəzəri platformasını, əsasən, psixoloji gerçəklik təşkil edir, nağılın obrazlar sistemi, süjet və motivlər aləmi sırf psixoloji komplekslərin kontekstində nəzərdən keçirilir. Artıq bu nöqtədən görünən gerçəklik dünyanın strukturundan daha çox mədəniyyətin strukturudur. Əslində elə birinci fəslin öz daxilində belə obrazlardan funksiyalara doğru tədrici bir yol gedilir, ikinci fəsildə yeraltı dünyaya enişlə yeni bir mərhələyə daxil olunur, üçüncü fəsildə ən populyar nağıl olan "Məlikməmməd"in psixoanalitik təhlili ilə bu yol özünün zirvə məqamına, bitkin konseptual səviyyəsinə gəlib çıxır. Bu yol nəzəri-metodoloji baxımdan filoloji yanaşmadan sosial-antropoloji yanaşmaya doğru gedilən yol kimi də özünü göstərir.

Hazırda həm folklorşünaslıqda, həm də ümumiyyətlə elmi-humanitar düşüncəmizdə müxtəlif nəzəriyyə və yanaşmalardan istifadəyə münasibət birmənalı deyildir. Məsələyə münasibətdə hər hansı bir nəzəri konseptə ifrat alüdəçilikdən ən normativ fənn terminologiyasından istifadəyə qarşı ifrat müxalifətçiliyə qədər müxtəlif mövqelər vardır. Kimin necə münasibət göstərməsindən asılı olmayaraq, bizcə, problem bir az başqa məsələdədir. Problem ondadır ki, Azərbaycan humanitar elmi düşüncəsində kimin hansı mövqedə olmasından asılı olmayaraq, mətnlə nəzəri-metodoloji konsepsiya arasında bütün hallarda müəyyən bir "məsafə" müşahidə olunmaqdadır. Müxtəlif nəzəriyyələri əhatəli təqdim edən kifayət qədər

əsərlər vardır ki, biz onları heç bir halda sistemli olaraq mətnlərə tətbiq olunmuş vəziyyətdə görə bilmirik. Bu araşdırmalar faktiki olaraq mətnlərin təhlilinə tətbiq edilmədiyindən folklorşünaslıqdan daha çox, elmşünaslıq təsiri bağışlayır və havadan asılı vəziyyətdə qalmış olur. Birinci istiqamətdən fərqli olaraq sırf mətnlərin təhlilinə əsaslanan kifayət qədər çoxsaylı tədqiqatlar da vardır ki, orada konseptual nəzəri baxış bucağından yanaşma zəif olduğundan, bir az da səmimi ifadə etsək, kateqorial anlayışlarla nəzəri düşünmək peşəkarlığı olmadığından bu təhlillər daha çox mətnin məzmunun təsviri xarakteri daşıyır və yenə də havadan asılı vəziyyətdə qalmış olur.

"Azərbaycan nağılları: obrazlar və funksiyalar" kitabının müasir Azərbaycan folklorşünaslığında xüsusi rolu və əhəmiyyətini həm də onunla izah etmək olar ki, burada mətnlə nəzəri konsepsiya müəlliflər tərəfindən nəinki bir-birinə "yaxınlaşdırılmışdır", dünya folklorşünaslığının kifayət qədər mütərəqqi və prioritet hesab olunan elmi-nəzəri modelləri konkret mətn nümunələrinə, həm də onların çoxsaylı variant və versiyalarına olduqca uğurlu bir şəkildə tətbiq edilmiş, irəli sürülən elmi qənaətlər əksər hallarda müəyyən bir nəzəri tətbiqin nəticəsi kimi faktlaşmışdır. Kitabda mətnin nəzəri oxusundan doğan elmi qənaətlərin məntiqiliyi, bu qənaətlərin bir-biri ilə növbəti məntiqi əlaqə zənciri ilə bağlanması və son nəticədə, bitkin bir elmi mənalar sistemi yaratması elə səviyyədədir ki, araşdırma heç bir halda süni olaraq "nəzəri görünmək" iddiası təsiri bağışlamır, "nəzəriyyə necə dəqiq işləyir" təəssüratını və bəzi hallarda da təəccübünü doğurur. Bunu yalnız Azərbaycan nağılşünaslığı üçün deyil, bütövlükdə müasir folklorşünaslığımız üçün xüsusi uğur kimi dəyərləndirmək olar. Hesab edirik ki, bu araşdırma yuxarıda qeyd edilən nəzəri siqləti və nağıllara konseptual yanaşması ilə Azərbaycan nağılşünaslığını folklorşünaslıqdan diferensasiya edə bilmə potensialına malikdir.

Kitabın birinci fəsli "Azərbaycan nağıllarında yardımçı obrazların funksional semantikası" adlanır. Hər şeydən əvvəl onu qeyd etmək istərdik ki, bu araşdırma heç bir digər folklor janrı ilə müqayisə olunmayacaq zəngin nağıl obrazlarının həm kəmiyyət, həm də elmi keyfiyyət baxımından (nəzəri-metodoloji baxımdan) bu həcmdə təhlili təcrübəsində yenilikdir. Burada nağılların zəngin obrazlar sistemi elə məhz sistemli olaraq, mükəmməl təsnifati strukturda, kifayət qədər müasir nəzəri-metodoloji elmi baza əsasında təhlilə cəlb edilmişdir. Kitabın bu fəslində nağılların süjet strukturunda qəhrəmanla, bəzən eyni dərəcədə funksionallıq imkanı qazanan yardımçı obrazlar vahid semantik bucaqdan araşdırılmışdır. Müəlliflər özləri yardımçı obrazların öyrənilməsinin elmi əhəmiyyətini aşağıdakı kimi izah edirlər: "... yardımçı obrazların araşdırılması ilə nağılın struktur sxeminin

formalaşma texnikası, obrazların epik mətndə işləmə mexanizmi və s. kimi əsaslı məsələlər də diqqət mərkəzinə gəlmiş olur".

Tədqiqatda hər bir yardımçı obraz qəhrəmanla münasibətdə öyrənilməklə bərabər, müstəqil olaraq onun nağıl poetikasındakı yeri, həmin obrazın təbiəti də araşdırılmışdır. Beləliklə, yardımçı obrazlar, həm genezis, həm də funksional semantika baxımından təhlil olunmuşdur.

Araşdırmada diqqəti çəkən mühüm cəhətlərdən biri yuxarıda da qeyd edildiyi kimi, nağılların obrazlar sisteminə tətbiq edilən çoxpilləli təsnifat modelləridir. Məlum olduğu kimi, təsnifat fəlsəfi olaraq bütövün hissələrə ayrılmasına, bütövdə hissələri, hissələrdə bütövü idrak mexanizmlərinə əsaslanır. Vaxtilə Vladimir Propp özünün "Folklor janrlarının klassifikasiya problemləri" məqaləsində belə bir fikir irəli sürürdü ki, "bizdə (rus folklorşünaslığını nəzərdə tutur – S.X.) folklorun təsnifi sahəsində onu kiçik hissələrə bölməkdən qəribə bir qorxu müşahidə olunur. Klassifikatorlar mümkün qədər ən ümumi və ən geniş təsnif növləri ilə kifayətlənirlər". Alim folklorşünasları hətta zooloqların canlılar aləminin bölünməsində istifadə etdikləri çoxpilləli bölgülərdən nümunə götürməyə çağırırdı.

Təqdim olunan araşdırmada, xüsusən birinci fəsildə müxtəlif elmi meyar və prinsiplərə əsaslanan çoxsaylı təsnifat nümunələri ilə rastlaşırıq ki, bu da hər şeydən əvvəl müəlliflərin problemə sistem yanaşmasından, problemin mümkün qədər daha aydın elmi mənzərəsini vermək cəhdindən və peşəkarlığından irəli gəlir. Biz araşdırma boyu, demək olar ki, hər addımda rast gəlinən bölgü və təsnifat nümunələrini yüksək dəyərləndirir, bunu az-az təsadüf olunan "elmi düşüncə mədəniyyətinin" faktı hesab edirik.

Biz yuxarıda qeyd etdik ki, kitabda "funksiya" sosial-antropoloji yanaşmanın əsas kateqorial anlayışlarından biri olaraq mühüm semantik əhəmiyyətə malikdir. Ona görə də, müəlliflərin bu anlayışla bağlı düşüncələri üzərində nisbətən əhatəli dayanmaq istərdik.

İlk növbədə onu müəyyənləşdirək ki, müəlliflərə görə, "funksiya" anlayışı nəyi ifadə edir və onların yanaşması mövcud baxışlardan nə ilə fərqlənir. Kitabda "funksiya" aşağıdakı kimi tərif edilmişdir: "O fəaliyyətləri funksiya hesab etmək olar ki, o, hər hansı bir obrazın davamlı, təkrarlanan, xarakterik hərəkət əlaməti olsun və müxtəlif mətnlərdə eyni fəaliyyət çevrəsini reallaşdırsın. Yəni obraz mədəni sistemdə ənənəvi funksiyalarla çıxış edir ki, bu da birbaşa olaraq, obrazın təbiəti, arxetipik mahiyyəti ilə bağlı olur. Başqa sözlə, obrazı mətnə bağlayan əsas bağ kimi funksiya çıxış edir. Bu mənada belə demək olar ki, funksiya üçün əsas cəhət maksimum dərəcədə ümumi, mahiyyətcə eyni olan fəaliyyətləri birləşdirməkdir".

Bu yanaşmadan aydın olur ki, müəlliflərə görə, funksiya:

– hər hansı bir obrazın davamlı, təkrarlanan, xarakterik hərəkət əlamətidir;

– müxtəlif mətnlərdə eyni fəaliyyət çevrəsini reallaşdırır;

– obrazın mədəni sistemdə ənənəvi əlamətləri kimi çıxış edir;

– obrazın təbiəti, arxetipik mahiyyəti ilə bağlıdır;

– obrazı mətnə bağlayan əsas bağ kimi özünü göstərir;

– maksimum dərəcədə ümumi, mahiyyətcə eyni olan fəaliyyətləri özündə birləşdirir.

Hesab edirik ki, müəlliflərin funksiya barədə irəli sürdükləri fikirlər, ümumən, doğru olmaqla yanaşı, müəyyən polemika üçün də əsas verir. Həqiqətən də, qeyd olunduğu kimi, funksiya nağıl mətnlərində obrazların daim təkrarlanan hərəkət əlaməti kimi özünü göstərir, bu əlamət müxtəlif mətnlərdə eyni fəaliyyət çevrəsini reallaşdırır, obrazlar əksərən ənənəvi funksiyaların daşıyıcısı kimi çıxış edir və s. Qeyd olunanlar tamamilə doğrudur. Burada mübahisə doğuran məqam isə obraz və funksiyanın təyinedicilik statusları ilə bağlıdır. Göründüyü kimi, müəlliflər “nə nəyin nəyidir” model-qəlibi üzrə “funksiya obrazın təkrarlanan hərəkət əlamətidir” tezis-imperativini irəli sürürlər. Bu, obraza təyinedici, funksiyaya isə təyinolunan statusu vermək deməkdir. Sanki, təyinedici statusda olan obraz mətndə funksiyanı özünün əlaməti olaraq əks etdirir. Bu yanaşma müəlliflərin aktuallaşma aspektindən funksiyaya baxışında da özünü göstərir. Kitabda belə bir fikir irəli sürülür ki, funksiyaya iki aspektdən yanaşmaq olar:

1. Epik mətndə konkret aktuallaşan funksiya;
2. Obrazın potensial funksionallığı.

Müəlliflərə görə, “epik mətndə konkret aktuallaşan funksiya (süjet üçün cari funksiya) dedikdə, obrazın çoxsaylı təzahür olunma imkanlarından birinin aktuallaşmasını nəzərdə tuturuq. Məsələn, konkret nağıl mətnində keçəl obrazının təbiətindən doğan fəaliyyətlərindən biri və ya bir neçəsi aktuallaşa bilər. Amma bu həmin obrazın mahiyyətinin bütün ölçülərini sərgiləmir. Onun mədəniyyətdəki bütün mahiyyəti potensial funksionallaşmasında saxlanılır”.

Buradan da aydın görünür ki, istər konkret aktuallaşan funksionallıqda, istərsə də potensial funksionallaşmada “funksiya obrazın əlaməti” kimi dərk və təqdim edilir.

Əslində isə, Vladimir Proppun yüz il bundan əvvəl müəyyənləşdirdiyi kimi, “nə nəyin nəyidir” model-qəlibi üzrə yanaşmada funksiya obrazın deyil, obraz funksiyanın özünü reallaşdırma vasitəsidir. İlk dəfə olaraq V.Propp müşahidə etmişdir ki, nağılların strukturunda sabit və dəyişməz vahidlər statusunda çıxış edən nə motiv, nə süjet, nə mövzu, nə də personajlardır. V.Proppa görə, belə sabit va-

hidliklər statusunda funksiyalar çıxış edir. Nağıllarda mövzu da, personaj da dəyişə bilər. Funksiyalar isə sabit vahidlər kimi daim qalmaqdadır.

Biz hesab edirik ki, müəlliflərin funksiya anlayışına belə “obraz ağırlıqlı” yanaşması bilavasitə nağıl mətninə bədii nümunə kimi filoloji yanaşma ənənəsindən qaynaqlanır, eyni zamanda, yuxarıda da qeyd etdiyimiz kimi, sosial-antropoloji yanaşmaya keçid dinamikasını da özündə əks etdirir. Müəlliflər funksiyanı nəzəri cəhətdən nisbətən filoloji baxış bucağından izah etsələr də, konkret mətnlərin təhlilində bu yanaşma nəinki təkrarlanmır, əksinə nağıl mətnlərində funksiyanın təyinedici statusu hər an təsdiq edilir, hətta onun sabitliyini şərtləndirən amillərin müəyyənləşdirilməsinə qədər gedib çıxılır. Biz bu məqamı araşdırmanın ən diqqətəlayiq və mühüm məziyyəti hesab edirik. Çünki məhz bu məqamda olduqca mühüm bir suala da cavab verilmiş olur: əgər obrazlar mətndə sabit funksiyaların ifadəçisi olaraq reallaşırlarsa, onda bəs əlahəzrət funksiyanın sabitliyi və təyinedici statusu hansı amillərlə şərtlənir?

Müəlliflər Azərbaycan nağıllarının konkret obrazlarının təhlili timsalında sübut edirlər ki, funksiyaların süjeti, personajı, motivi şərtləndirən sabit vahidlər kimi çıxış etməsi, onların özlərinin bilavasitə sosial və psixoloji reallıqlarla sıx bağlı olmasından irəli gəlir. İnsan hansı tarixi dövrdə, hansı sosial reallıqda yaşamasından asılı olmayaraq universal-antropoloji xarakterli psixoloji komplekslərin daşıyıcısıdır və nağıl mətnlərində funksiyaların psixogenetik əsasını məhz onlar təşkil edir. Psixoloji komplekslər antropoloji xarakterli olduğu üçün universal, universal xarakterli olduğu üçün antropolojidir. Nağıl süjetlərinin və obrazlarının heyrətamiz dərəcədə universallığının da əsasında məhz bu cəhət dayanır.

Dediklərimizin əyani sübutu üçün diqqəti kitabdakı bir obrazın təhlili nümunəsinə yönəltmək istərdik. Kitabda Azərbaycan nağıllarının aparıcı yardımçı obrazlarından olan keçəl obrazı ilə bağlı müəlliflər yazır: “keçəllik bir-biri ilə semantik əlaqəsi olan aşağıdakı məna yüklərinə malikdir:

1. Uşaqlığın işarəsidir;
2. Statussuzluğun işarəsidir;
3. Çirkinliyin işarəsidir;
4. Fallik gücsüzlüyün işarəsidir.

Nağıllar fantaziya kontekstində uşaqların arzularının doyurulmasına xidmət edən janr olduğuna görə, burada statussuz keçələ (yəni uşağa) xüsusi qəhrəmanlıq statusu verilir və bu zaman onun statussuzluğu, çirkinliyi və fallik gücsüzlüyü də ironik kontekstdə qəhrəmanlıq elementləri kimi təqdim olunur. Bir çox nağıllarda sonda keçəlin evlənməsi, gözəl oğlana çevrilməsi uşaq arzularını doyuracaq qəhrəman yaratmaq ehtiyacından irəli gəlir. Çünki stereotiplərlə yenicə tanış olan uşaqlar

keçəlin qəhrəmanlığı ilə daxili-psixoloji mövqe baxımından bir o qədər rahatlıqla razı ola bilmirlər. Uşaqlar öz gerçək uşaqlıq durumları ilə razılaşmayıb fantaziya kontekstində dünyaya güclü və bütün düşmənlərə qalib gələn qəhrəmanların gözü ilə baxıb, onlarla eyniləşib həzz aldıqları kimi, öz gerçək statussuz uşaqlıqlarına uyğun gələn keçəlin də qəhrəmanlığı ilə (daha doğrusu qəhrəmanlığın imitasiyası ilə) razılaşmayıb sonda onu gözəl və imarətlərə sahib insana çevrilməsi ilə bağlı "psixoloji tələb" irəli sürürlər. Bu çevrilmə ilə uşaq psixologiyasının digər nağıl qəhrəmanları timsalında ifadə olunan psixoloji ehtiyacları da ödənilir".

Psixoanalitik metodun tətbiqi əsasında keçəl obrazının psixogenezisinin müəyyənləşdirilməsi, xüsusən bu psixogenetik əsasın obrazın xarakterik əlamətlərinin formalaşmasında və nağılın poetik strukturunda funksional iştirakının izahı, hesab edirik ki, kifayət qədər məntiqi olaraq arqumentləşdirilmişdir. Qeyd etmək istərdik ki, sitatda əksini tapan bir fikir, Alan Dundes tərəfindən formulə edilmiş "nağıllar uşaq mövqeyindən böyüklər tərəfindən yaradılmışdır" ideyası bütövlükdə bu araşdırma üçün aprior xarakterli tezis statusundadır və tədqiqat boyu bu yanaşmadan müxtəlif fərqli situasiyaların izahında əsas yanaşma kimi istifadə edilir.

Beləliklə, təqdim olunan araşdırmada obrazın funksionallığının psixogenetik kontekstdə izahı, nağıllarda funksiyaların sabitliyinin, təyinedici statusunun mənşəyini müəyyənləşdirmiş olur.

Kitabda xüsusi qeyd olunmalı cəhətlərdən biri də funksiya və obrazın qarşılıqlı münasibətinin nisbəti barədə irəli sürülən elmi mülahizələrdir. Bu barədə müəlliflər yazır: "...mətnlərdə bir obraz bir neçə funksiyanı yerinə yetirməklə yanaşı, bir funksiyanın ayrı-ayrı obrazlar tərəfindən həyata keçirdildiyi məqamlar da mövcuddur. Məsələn, nağıllarda həm dərviş, həm qarı, həm də çoban obrazı informasiyavermə funksiyasını yerinə yetirir. Lakin butavermə funksiyasını isə konkret olaraq, dərviş obrazı kompleksindən olan bir obraz həyata keçirir. Və yaxud dərviş obrazı butavermə, yolgöstərmə, informasiyavermə və s. kimi funksiyaları reallaşdırır. Dərviş obrazının mətnlərdə bir neçə funksiyanı həyata keçirməsi bir və ya bir neçə motiv üzərində qurulur."

Kitabın ikinci fəsli "Azərbaycan nağıllarında yeraltı dünya obrazına funksional semantikası" adlanır. Burada ilk dəfə olaraq, yeraltı dünya anlayışı obraz kimi dərk olunmuş və təhlil edilmişdir. Burada nağılların fantaziya dünyasında xüsusi yer tutan xaos aləmi, xaotik gerçəklik və xtonik mahiyyət təhlilə cəlb edilmişdir. Müəlliflər, metaforik-simvolik planda "yeraltı dünya", "qaranlıq dünya", "o biri dünya" kimi adlandırılan mahiyyətin arxasında dayanan gerçəkliyi həm obraz səviyyəsində, həm də funksional semantika aspektindən araşdırmışlar.

Onu da qeyd etmək vacibdir ki, tədqiqatda "yeraltı dünya" obrazı müxtəlif məna səviyyələrində – zaman və məkan xarakteri, yaş semantikası, səs və rəqəm işarəsi, rəng simvolikası, zahiri əlamət və davranış spesifikası aspektlərindən öyrənilmişlər.

Araşdırmada "yeraltı dünya" obrazı eyni zamanda metaforik-simvolik mənada nağılın real məkanı ilə xaos məkanı arasında keçidi təmin edən "yeraltı dünyaya keçid məkanlar" aspektindən də araşdırılmışdır. Təsadüfi deyildir ki, keçid məkanlar da nağılların obrazları kompozisiyasının tərkib hissəsi kimi təhlilə cəlb edilmişdir.

Kitabın üçüncü fəsli "Məlikməmməd" nağılının (Aarne-Thompson 301) əsasında) psixosemantikası" adlanır. Yuxarıda da qeyd etdiyimiz kimi, kitabın bu fəsli bitkin nəzəri-metodoloji konsepsiya, ən iri çətir olaraq sosial-antropoloji nəzəri baza, konkret iş aləti olaraq psixoanalitik metod əsasında qələmə alınmışdır. Əslində kitabın bu fəslini "nağılların psixoanalitik oxusu" da adlandırmaq mümkündür. Burada müəlliflərin üzərində xüsusi dayandıqları əsas tezis nağılların uşaq fantaziyasının gücü və böyüklərin steretiplərinin təsiri məxrəcində formalaşması məsələsidir. Bu baxımdan problemə yanaşan müəlliflər nağıl obrazlarının, eləcə də nağılın süjetində aparıcı xətti təşkil edən hadisələrin psixogenezisinin, həmçinin, sosial gerçəkliklə korelyasiya olunan davranışların nağıllarda mənayaradıcı mahiyyətinin konkret faktlar üzrə təhlilini vermişlər. Belə ki, burada ata-oğul, ana-oğul, böyük qardaş-kiçik qardaş xətləri, ata-div obraz modeli və s. kimi məsələlər geniş təhlil olunmuşdur.

Məsələn, məlumdur ki, bütün dünya nağılları üçün universal olan bir motiv var: nağılın əsas qəhrəmanı statusunda olan kiçik qardaş fenomeni. Bu barədə istər milli folkloreşünaslığımızda, istərsə də dünya folklorşünaslığında kifayət qədər geniş araşdırmalar mövcuddur. Mövcud araşdırmalarda bu faktın meydana gəlmə səbəbi və funksional mahiyyəti daha çox sosial-tarixi proseslərlə izah olunmuş, faktın universallığı da sosial-tarixi proseslərin bütün dünya xalqları üçün universal olması ilə izah edilmişdir. Araşdırmada Azərbaycan folklorşünaslığında ilk dəfə olaraq bu fakta psixoanalitik folklorşünaslığın proyektiv inversiya modeli əsasında yanaşılmış və müəyyən edilmişdir ki, böyük qardaşların kiçik qardaşa olan düşmən münasibəti, əslində kiçik qardaşın böyük qardaşa olan düşmən münasibətinin nəticəsidir. Mətn kiçik qardaşın mövqeyindən yarandığından tərsinə proyeksiyalanma baş vermişdir.

Araşdırmada xüsusi qeyd edilməli cəhətlərdən biri də simvolik ekvivalentlik sisteminin öyrənilməsidir. Yenə də psixoanalitik metodun tətbiqi ilə nağılların əsas obrazlarından olan divlərin ata ilə eyni simvolik ekvivalentlik cərgəsində dayandığı, obrazın psixogenezisinin əsasında Edip kompleksinin olması fikri irəli sürülmüşdür. İnanadırıcı dəlillərlə müəyyyənləşdirilmişdir ki, nağıllarda div məhz ata gücünün ifadəsidir. Paralel olaraq simurq obrazının isə ana ilə eyni simvolik ekvivalentlik təşkil etdiyi də məntiqi dəlillərlə sübut edilmişdir.

Qeyd etmək istərdik ki, nağıl obrazlarının, xüsusən də sehirli obrazların genezisi, nağılların süjet strukturunda rolu və mövqeyi, ümumiyyətlə funksional mahiyyəti nağılşünaslığın əsas elmi problemlərindən birini təşkil edir. Araşdırmalar ona şahidlik edir ki, bu tipli obrazların genezisinin müəyyənləşdi-rilməsi istiqamətindəki əsas elmi cəhd diaxronik olaraq mümkün qədər tarixin dərinliklərinə baş vurmaqla müşayiət olunur. Lakin tarixin dərinliklərində nə küpəgirən qarıların, nə sehirli üzüklərin, nə divlərin, nə uçan xalçıların, nə sehirli almaların heç birinin izinə-tozuna belə rast gəlinmir. Azərbaycan folklorşünaslığında ilk dəfə olaraq bu araşdırmada problemə münasibətdə fərqli mövqe sərgilənmiş, həmin obrazların genezisi psixogenetik kontekstdə, antropoloji olaraq ailə institutunun daxili münasibətləri kontekstində izah edilmişdir. Bu barədə müəlliflər yazır: "Nağıl qəhrəmanı uşaq mövqeyi əsasında yaradılır. Odur ki, dramatik münasibətlərin harada və kimlər arasında baş verməsinin təsvirindən asılı olmayaraq onların psixoanalitik prototipində ailə münasibətləri dayanır. Ailə münasibətləri və bu kontekstdə formalaşan ailə kompleksləri nağılların mənalarının formalaşmasında həlledici rol oynayır. Nağılların uşaq mövqeyi əsasında yaradılmasını nəzərə alaraq təhlil edəndə onun fantaziyasının formalaşmasında ciddi rol oynayan ailə kompleksləri və onların mətndə proyeksiyalanma modelləri ciddi şəkildə nəzərə alınmalıdır. Nağıllara uşaq fantaziyasının bir hissəsi kimi baxıb bu kontekstdən onları dəyərləndirməsək hər zaman onların daxili məzmunundan kənarda qalacağıq. Bu aspektdən nağıllara baxdıqda oradakı irrasional motiv və süjetlərin çoxmənalılığını, onlarda ifadə olunan ambivalent mənaları daha yaxşı anlamaq olar".

Kitabın müsbət dəyərləndirilməli cəhətlərindən biri də araşdırmaların müxtəlif nağıl mətnlərinin çoxsaylı variantları üzərində aparılmasıdır. Xüsusi olaraq qeyd etmək istərdik ki, folklorun sosial-antropoloji aspektdə öyrənilməsində variantlılıq elmi norma olmaqdan daha çox, necə deyərlər, həyati əhəmiyyətə malikdir. Çünki mətnin nə qədər çox variantı üzərində tədqiqat aparılırsa, kontekstual dinamikanı o qədər dəqiq izləmək mümkün olur. Sosial-antropoloji yanaşmada semantik cərgə məhz variantların düzümündən yaranır. Bu mənada kitabda variantlılığa xüsusi üstünlük verilməsi bir tərəfdən olduqca ağır intellektual əməkdən, mətnlərə akademik məsuliyyətlə yanaşma peşəkarlığından və elmi əxlaqdan irəli gəlirsə, digər tərəfdən də bu, bilavasitə tətbiq olunan metodun diqtəsidir.

Müasir Azərbaycan folklorşünaslığının nəzəri-metodoloji axtarışları və beynəlxalq elmi fikir dövriyyəsinə inteqrasiyası kontekstində xüsusi aktuallığını nəzərə alaraq, psixoanalitik folklorşünaslıq üzərində də dayanmaq istərdik. Buna heç bir şübhə yoxdu ki, o qədər də qədim tarixi olmayan dünya folkloşünaslıq elmində psixoanalitik istiqamət hazırda ən aparıcı təmayüllərdən birini təşkil edir. Ötən əsrin

ikinci yarısında geniş yayılmağa başlayan bu istiqamətə uzun illər sovet folklorşünaslığında nəinki mənfi münasibət olmuş, hətta bu istiqamətdəki araşdırmalar, ümumiyyətlə ideoloji baxımdan zərərli hesab edilmişdir. Məsələn, sovet folklorşünaslığının ən ünlü simalarından olan E. Meletinski "psixoanalitiklər xalq yaradıcılığının ictimai təbiətini psixopatologiya səviyyəsinə qədər endirirdilər" deyərək bu istiqaməti "folklora ruhi xəstələrin sayıqlamaları" olaraq baxmaq kimi dəyərləndirirdi.

Qəribədir, vaxtilə Qərbdə iyirminci əsrin ən ünlü elmi simalarından hesab olunan Norbert Viner kibernetikanın və süni intellekt nəzəriyyəsinin əsaslarını yaradarkən bu araşdırmalar sovet elmində "yalançı elm" kimi dəyərləndirilmiş və nihilistcəsinə inkar edilmişdir. Bizcə, belə nihilist münasibətin ictimai və humanitar elm sahələrində ən "uğurlu" anologiyası məhz Ziqmund Freydin psixoanalizinə olan inkarçı və ironik münasibət olmuşdur. Ötən əsrin doxsanıncı illərində belə bir şəhər mifi yaranmışdır ki, sovet hakimiyyətinin dağılmasının çoxsaylı səbəblərindən biri də sovet elminin uzun illər ərzində kibernetikaya etinasız münasibəti olmuşdur. Əgər bu mifdə zərrə qədər həqiqət payı varsa, bizcə, ora psixoanalizi də əlavə etmək ədalətli olardı. Bunu iyirminci əsrin ortalarından ta günü bu günədək psixoanalizlə digər ictimai və humanitar elm sahələrinin multidissiplinar əlaqəsindən yaranan elmi istiqamətlərin prioritetliliyi bir daha sübut etməkdədir.

Hesab edirik ki, bütün digər nəzəri-metodoloji yanaşmalarla bərabər, yalnız folklorşünaslığın deyil, bütövlükdə mədəniyyətin psixoanalitik metodla da öyrənilməsi təqdir edilməlidir.

Sonda bir neçə kəlmə müəlliflərin, filologiya üzrə fəlsəfə doktorları Səfa Qarayevin və Hikmət Quliyevin ümumi araşdırma istiqamətləri, folklorşünaslıq fəaliyyətləri barədə də fikirlərimizi oxucuların nəzərinə çatdırmaq istərdik. Artıq on ilə yaxındır ki, Səfa Qarayev və Hikmət Quliyev, eyni zamanda bu sətirlərin müəllifi tərəfindən dünya folklorşünaslığının prioritet istiqamətlərindən olan folklorun sosial-antropoloji yanaşma əsasında öyrənilməsi sahəsində birgə tədqiqatlar aparılmaqdadır. Müasir humanitar-elmi düşüncəmizdə kollektiv iş təcrübələrindən biri kimi meydana gələn bu əməkdaşlıq (təbiət və texnika elmləri sahəsində kollektiv elmi iş təcrübəsi geniş yayıldığı halda, humanitar sahədə buna az təsadüf edilir) nəticəsində aparılan araşdırma üç mühüm istiqaməti əhatə edir:

– kulturoloji və fəlsəfi aspektdən folklorun funksional semantikasının öyrənilməsi;

– psixoanalitik aspektdən folklorun semantikasının öyrənilməsi;

– exnokulturoloji aspektdən İnternet mühitindəki folklor proseslərinin öyrənilməsi.

Birinci istiqamət kulturuloji aspektdən folklorun sosiomədəni sistem bütövlüyünün əsaslandırılması, bu kontekstə onun funksional strukturunun analizi, mədəni müəyyənlik, mədəni funksionallıq və kommunikativlik keyfiyyətlərinin üzə çıxarılması, həmçinin sinxron təsnifinin və diaxron inkişafının mo-delləşdirilməsi kimi məsələləri əhatə edir.

İkinci istiqamət daha çox psixoanalitik aspektdən folklorda əks olunan proyeksiya modellərinin və simvolik ekvivalentlik sisteminin analizi, psixo-emosional metaforik reallığın stereotip və psixoloji komplekslərlə korelyativ əlaqələri, həmçinin sosial mühitdə bir sıra davranış və ifadələrin emosional impulsiv mənşəyinin müəyyənləşdirilməsi kimi aspektləri özündə əks etdirir.

Üçüncü istiqamət isə texnokulturoloji aspektdən azərbaycandilli virtual mühitdə gedən folklor prosesləri (İnternet folkloru), müasir fəlsəfi-ideoloji konseptlərə uyğun trend və tendensiyaların müəyyənləşdirilməsi, texnokulturoloji platformada cari sosial şərtlər kontekstində virtual sosial qrupların folklorik dinamikasının və ənənələrinin təhlili kimi məsələləri ehtiva edir.

Qeyd olunan elmi problemlər üzrə respublikada və xaricdə, xüsusən indekslənmiş beynəlxalq nüfuzlu nəşrlərdə çoxsaylı məqalələr və monoqrafiyalar çap olunmuş, onlar mütəxəssislər tərəfindən dərin maraqla qarşılanmışdır. İKT-nin verdiyi imkanlardan bəhrələnməklə dünyanın tanınmış folklorşünasları ilə qarşılıqlı əməkdaşlıq şəraitində işləyən müəlliflərin məşğul olduğu elmi problemlər, hesab edirik ki, Azərbaycan folklorşünaslığında sosial-antropoloji folklorşünaslığın inkişaf etdirilməsi, Azərbaycan folklorşünaslığının beynəlxalq elmi mühitə inteqrasiyası, dünya folklorşünaslığının elmi yeniliklərinin milli folklorşünaslıq düşüncəmizə daxil edilməsi baxımından əhəmiyyətlidir.

Beləliklə, Səfa Qarayev və Hikmət Quliyevin "Azərbaycan nağılları: obrazlar və funksiyalar" kitabı barədə, orada qaldırılan elmi problemlərlə bağlı fikir və mülahizələrimizi yekunlaşdırıraq oxucuları, xüsusən peşəkar folklorşünasları bu kitabla yaxından tanış olmağa dəvət edirik. Ümid edirik ki, kitab professional səviyyədə Azərbaycan nağılşünaslığının inkişafında mühüm rol oynamaqla yanaşı, kütləvi səviyyədə hər bir kəsin uşaqlıq dünyasının, uşaqlıq illərindəki dərin emosional yaşantılarının ayrılmaz tərkib hissəsi olan nağıllarımızı, onun zəngin obrazlar aləmini, süjet və motivlər sistemini yenidən fərqli rakursdan dəyərləndirmək baxımından da böyük marağa səbəb olacaqdır.

*Daxilolma tarixi: İlkin variant 21.04.2021*
*Son variant 12.05.2021*